Azad Azərbaycan 29 oktyabr / 2020


# Şahinlər

Açıb göy üzündə qanadlarını.
Yorurlar uçuşda göy atlarını.
Yazıb göy üzünə öz adlarını.
Vətən sevgisiylə uçur şahinlər.
Taxıb qanadına üçrəngli bayrağı.
Eşq ilə seyr edir dərəni, dağı.
Ona əmanətdi vətən torpağı
Vətən göylərini qucur şahinlər.
Hər biri hünərdə el qəhrəmanı.
Geniş göy üzüdür onun ünvanı.
Hər gün sevindirir Baş Komandanı.
Qələbə andını içir şahinlər.
Telli, bax dağılır düşmənin səfi.
Göydən od yağdırıb, yaxır hədəfi.
Vətən torpağında hər bir tərəfi.
Qırğı gözlərilə seçir şahinlər.

# Xarıbülbül

Uca tutmuşam xətrini,
Yağı nə bilir qədrini.
Gəldim qoxlayım ətrini,
Xoş gördük, xarıbülbül.
Çox olub sevəcəklərin,
Qanad açıb ləçəklərin.
Könlünü aç ürəklərin,
Xoş gördük, xarıbülbül.
Ümid ələ yaxıb xına
Arzular gəlir yaxına.
Sevgi qonur yanağına,
Xoş gördük, xarıbülbül.
Şuşanın könlü açılıb,
Çiçəyi gülü açılır.
Cıdırda bayraq sancılır,
Xoş gördük, xarıbülbül.
Telli öp eşqin üzündən
Qoy eşqin getsin özündən.
Salam var cıdır düzündən,
Xoş gördük, xarıbülbül.



*Telli Sənəm*

Tanrı ətirlidir varlığın, ana,
Adınla başlanır könül varağım.
Sən başı ağarmış bir uca dağım,
Səninlə yol gəlir könül varağım.
Tanrı ətirlidir varlığın ana.
Dağılır ömrümün dumanı çəni.
Pərişan xəyallar tərk edir məni,
Sinəmdə misralar çağırır səni.
Tanrı ətirlidir varlığın, ana.
Bir ovuc baharam bir ovuc qışam.
Neçə yol bəxtimi salıb qırmışam.
Hər gün xəyalınla qanadlanmışam,
Tanrı ətirlidir varlığın ana.
Sənsən əlifbası külli aləmin,
Eşqinlə silmişəm gözümün nəmin.
Könül çırağısan Telli Sənəmin,
Tanrı ətirlidir varlığın ana.